AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

# QARABAĞIN ARXEOLOJİ İRSİ

*Beynəlxalq Elmi Konfransın*

# MATERİALLARI

BAKI
*28-30 Noyabr 2016-cı il*

***Məsul redaktor:*** **M.N.RƏHİMOVA**
*tarix elmləri doktoru, professor*

"QARABAĞIN ARXEOLOJİ İRSİ" *Beynəlxalq Elmi Konfransın materialları.*
Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2016, 128 s.

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 117
Tel.: +99412 5393649

E-mail: arxeoetno@archaeology.org.az
info@archaeology.org.az
İnternet səhifə: www.archaeology.org.az
www.arxeologiya.az

ISBN 978-9952-8304-5-3

© *Arxeologiya və Etnoqrafiya İnstitutu, 2016*

**Yaqub Məmmədov**
Arxeologiya və Etnoqrafiya İnstitutu
(Bakı, Azərbaycan)

## AZIX ADAMININ HOMİNİD SİSTEMİNDƏ YERİ

1968–ci il 23 iyunda Azıx mağarasının Orta Aşel mədəniyyətinə aid təbəqəsindən (V təbəqənin IV horizontundan), şərti sıfır xəttindən 7,3 m dərinliyində daş məmulatı və heyvan sümükləri ilə bərabər hominid qalığı – alt çənə sümüyünün sağ hissəsi aşkar edilmişdir. Əldə olunmuş nümunə Azərbaycan ərazisində bu zamana qədər aşkar olunmuş homo növünə aid ən qədim nümunədir və 350.000–400.000 il bundan əvvələ aid olunur.

Çənə sümüyü 1975–ci ildə o zamankı, ASSR EA Tarix Muzeyinə (indiki AMEA Azərbayan Milli Tarix Muzeyi) verilmişdir və hal – hazırada muzeyin qiymətli materiallar fondunda qorunur. Tapıntı ilkin olaraq 1968 – 1970-ci illərdə paleantoloq D. V. Hacıyev tərəfindən və 1978–1980-ci illərdə antropoloq R. M. Qasımova tərəfindən öyrənilmişdir.

Çənə tam olmadığına baxmayaraq bioloji mənsubiyyətinin müəyyən olunmasında böyük əhəmiyyətə malikdir. Belə ki, çənənin qalınlığı, dişlərinin quruluşu və ölçüləri paleoantropoloji müqayisə üçün çox mühüm elmi əhəmiyyətə malikdir.

Paleoantropoloji qalıq alt çənənin sağ hissəsinin arxa hissəsindən və tam olmayan şaxənin çıxıntısından ibarətdir. Çənə sümüyü ikinci azı dişi səviyyəsində sınmışdır. Sümük löhvəsinin daxili quruluşu kifayət qədər dəyişmişdir, məsaməli cisim kimi görünür. Aleveolyar hissənin çuxurlarında üçüncü azı dişi ($M_3$) tam, boyun səviyyəsində sınmış ikinci azı dişin ($M_2$) kökü və birici azı dişin ($M_1$) distal kökü saxlanılmışdır. Üçüncü azı dişin çeynəyici səthi sürtülmüşdür, sanki, parladılmışdır. Dentin (dişin əsas kütləsi) heç birində yoxdur.

Çənə fraqmenti rənginə görə parlaq – qəhvəyidir. Üçüncü azı dişin minası ümumən ağ – süd rənglidir. İkinci və üçüncü azı dişin kökü tünd – parlaq – qəhvəyi çalarlıdır.

Gövdənin qalınlığı sayəsində, çənə sümüyünün iriliyi diqqət çəkir. Gövdənin aşağı hissəsi sındığından, alt çənənin qalınlığı orta hündürlük əsasında müəyyən olunmuşdur. Bu ölçü $M_2$–$M_3$ aralığında D. Hacıyevin ölçmələrinə görə 19.5 mm, R. Qasımovanın ölçmələrinə görə 19.0 mm təşkil edir. $M_2$ və $M_3$ arası səviyyəsində hissənin hündürlüyü 23.0 mm təşkil edir.

Antropoloji ölçülərdə alveollar və əsas hissənin nisbi inkişafı böyük əhəmiyyət kəsb edir. Çənənin iki hissə arası sərhəd çənə dəliyi hissəsində yerləşir. Azıx çənəsində horizontal qanad və əsas hissə sındığından ölçmə aparmaq mümkün olmamışdır. $M_2$ və $M_3$ aralığı bərabərliyində aparılan nisbi ölçmə nəticəsində məlum olmuşdur ki, çənə sümüyünün əsas hissəsi alveolyar hissədən nisbətən nazikdir. Mütləq fərq 6 mm təşkil edir.

Azı dişlərin uzunluğuna görə (D. Hacıyevin ölçmələrinə görə 35 mm, R. Qasımovanın ölçmələrinə görə 34 mm təşkil edir) xırda diş formaya aid olunur.

Alveolyar hissənin forması da diqqət çəkir və digər hominidlərlə müqayisə üçün vacib xüsusiyyətlərdəndir. O, yuxarıdan çənə şaxəsinin çıxıntısına doğru genişlənən sahəyə malikdir. Buna görə də azı dişi yuvaları səthin ortasında yerləşir və beləliklə, dişlər linqval divarlardan təxminən 3 mm aralıdır.

Çənənin rentgen müayinəsinə əsasən köklərin birləşməsinin zəif olması və tavradontizmin aydın ifadə olunmaması müəyyən olunmuşdur.

Çənənin xarici divarında çənə dəliyinin (foramen mentale) arxa divarı saxlanılmışdır. O, kifayət qədər iridir və kanal müasir insanlardakı kimi çənəyə doğru istiqamətlənmişdir. Xarici divarda çənə dəliyi birinci azı dişin ön tərəfində və alveollar (diş yuvaqları) ucdan 15 mm aşağıda yerləşir.

Anatomik müasir insanlarda foramen mentaleadətən ikinci azı dişin səviyyəsində yerləşir. A. A. Zubov göstərir ki, Neandertallarda çənə dəliyi bir qədər arxada yerləşmişdir.

Bu cəhətinə görə o, Neandertallara yaxındır.

Çənə şaxəsinin səthinin daxilinə doğru, alt çənə kanalına aparan 2 mm diametrdə alt çənə dəliyi (foramen mandibule) yerləşir. Alt – çənə dəliyinə diaqnostik əhəmiyyət verilsə də, bəzi mütəxəsislər hesab edirlər ki, bu əlamət göstərici deyil, onun yerləşməsində böyük müxtəliflik müşahidə olunur. Müasir insanların alt  çənə dəliyinin yerləşmə dəyişkənliyini nəzərdən keçirdikdə məlum olur ki, bir halda o alveolların ucu, başı səviyyəsində, digərlərndə ucdan aşağıda yerləşir.

Azıx adamının ancaq bir çənə dəliyi var. Bu xüsusiyyətinə görə müsir insanlara bənzərdir. Alt çənə dəliyinin çoxluğu Homo erectus növləri və Homo heydelbergensis üçün xasdır.

Üçüncü azı diş ($M_3$) tacının mezio – distal diametri 11 mm, vestibulyar – linqval diametri 8.9 mm – dir. Iki diametr arasında fərq 2.1 mm təşkil edir. Buna müvafiq olaraq diş mezio – distal istiqamətdə uzanmışdır. Bu xüsusiyyətinə görə  Azıx adamı dolixodontizm qrupuna uyğundur.

$M_3$ – ün medial hissəsindən alt çənə dəliyinə qədər olan boşluq 38 mm təşkil edir. Müasir insanların heç birində bu 50 mm - dən aşağı deyil.

Azı dişləri çənənin orta qalınlığında yerləşir. Bütün qazıntı qalıqlarda və müasir insanlarda azı dişləri çənənin ən kənar divarlarında yerləşir. Bu xüsusiyyətinə görə onun qazıntı qalıqları arasında bənzəri yoxdur.

Relyefin inkişaf və $M_3$–ün çeynəyici səthinin vəziyyətinə əsasən R. Qasımova çənə fraqmentini 20–25 yaşlarında, D. Hacıyev 18–22 yaşında qadına aid etmişdir. Bu zamana qədər nəşr olunan əsərlərdə əsasən ikinci fikir əks olunmuşdur.

Çənə sümüyünün məxsus olduğu insanın hominid sistemində yeri ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı var. Belə ki, paleoantoloq D. A. Hacıyev onu çənə sümüyü iriliyinə görə son arxantroplardan (Homo erectus növündən) erkən paleantroplara (Neandertallara) keçid mərhələsinə aid olduğunu bildirmiş və  heydelberq adamı tipli preneandertallara aid etmiş, "Azıxantrop" adlandırmışdır. Bu zaman Azıx adamının qərbi Avropa preneandertal forması tipi Kond, Arqo (Fransa) tipi ilə aşkar morfoloji bənzərliyi əsas gətirilmişdi.

R. M. Qasımova Azıx adamının preneandertallara aid olunması fikri ilə qətiyyən razı olmamış, onu Neandertalların yerli erkən qrupuna aid etmişdir və "Palaeoanthropus azykhensis" adlandırmıdır.

XX əsrin 50–70–ci illərində Avropada Araqo, Montmorendə (Fransa) və digər ərazilərdə aşkar olunan materiallar əsasında Homo sapiensdən əvvələ aid iki hominid qrupu ayrılmışdır. Birinci, "şteynheym" qrupu adalandırılmışdır ki, bura Neandertallardan fərqlənən ayrıca insan qanadının ən erkən forması aid olunur. İknici, Homo erectusa bənzər xüsusiyyələrə malik "totavel – montmoren" qrupu idi. Bu qrupu daha çox preneandertal və ya erkən Neandertallar adlandırmışlar. Lakin, hər iki qrup hazırda erkən arxaik homo sapiensə və yaxud Homo heidelbergensisə aid olunur. İlk nümunələri 1,3 milyon il əvvəl, son nümunələr 250,000 il əvvəl qədər movcud olmuş__Homo heidelbergensis növünün Avropaya köç edən növləri xüsusilə Almaniya və Fransanın şimal bölgələrində təkamül edərək, 350.000 il əvvələ qədər digər ərazilərədə yayılmışdır, Avropada 300.000 il əvvəl, volşteyn dövründə Neandertallara, Asiyada Denisovanlara ayrılmış, vyrum buzlaşmasının birinci mərhələsində isə Avropada geniş yayılmışdırlar.

Yuxarda qeyd olunanlardan bu nəticəyə gəlmək olar: Azıx mağarasından aşkar olunan alt çənə sümüyü hissəsi 20–25 (18–20) yaşlarında qadına məxsusdur; Homo sapiens neanderthalensis  istiqamətində transformasiya edən Homo heydelbergensis dairəsinə aiddir; geoloji cəhətdən mindel – riss dövrünə, arxeoloji cəhətdən Orta Aşel mədəniyyətinə aiddir.

Analoji dövrə dair materiallar Marakko (Mərakeş) (Sidi – Əbdürəhman), Almaniya (Şteynheyn), İngiltərədə (Svanskomb), İtalyada (Sedia – del - Dyavolo) və digər ərazilərdə

aşkar olunmuşdur və onlar Homo heidelbergensis növünə aid olunur.

Azıx adamının paleoantropoloji cəhətdən öyrənilməsi, Kiçik Qafqazın şərq hissəsinin orata aşel dövründə Homo heidelbergensisin neandertallara doğru inkişaf etmiş son qrupuna yaxın qədim insanların məskəni olduğunu göstərir və Cənubi Qafqaz ərazilərində aşel dövrü adamlarının fiziki quruluşunun elmi tədqiqində mühüm əhəmiyyət kəsb edir. Beləliklə, Azıx adamı Homo heidelberq qrupunun Şərqi Avropada ən son nümayəndələrindən biri hesab oluna bilər. Onun "Homo azykhensis" adlandırması daha məqsədə uyğundur.

Cədvəl. Azıx adamın çənə sümüyünün və üst üçüncü azı dişin ölçülərinin bəzi digər fosillərlə müqayisəsi

| Qalıqlar | | Ölçülər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Çənə sümüyünün ölçüləri | | | $M_3$ (üçüncü azı dişi) | | | | |
| | | $M_2$ və $M_3$ arası səviyyəsində hissənin qalınlığı | $M_2$ və $M_3$ arası səviyyəsində hissənin hündürlüyü | $M_2$ və $M_3$ arası səviyyəsində irilik göstəricis | $M_3$ mezo – distal diametr | $M_3$ vestibul – linqval diametri | $M_3$ tacının iriliyi qalınlığı | M3 tacının formasının göstəricisi | Azı dişlərin uzuluğu ($M_1$ – $M_3$) |
| Azıx çənəsi | D. Hacıyevin ölçmələrinə görə | 19.5 | 23.0 | 84.8 | 11.0 | 8.9 | 97.9 | 80.9 | 35.0 |
| | R. Qasımovanın ölçmələrinə görə | 19.0 | 23.0 | 82.6 | 11.0 | 8.9 | 97.9 | 80.9 | 34.0 |
| Avstralopitek (parantrop ) | | 28.7 | 33.9 | 84,9 | 17.0 | 14.6 | 274,8 | 85.9 | 46.3 |
| D2735 | | 22 | 21.5 | 109.5 | - | - | - | - | - |
| Dmanisi D211 | | 20.7 | 25.3 | 1009.5 | 11.2 | 10.6 | 118,7 | 94.6 | - |
| OH22 | | 20.7 | 28 | 84.8 | _ | _ | _ | _ | _ |
| OH13 | | 20.8 | 24.5 | 73.9 | 14.6 | 12.5 | 182.5 | 85.6 | - |
| ER992 | | 24 | 34.5 | 69.5 | 12.5 | 11 | 137.5 | 88 | - |
| ER730 | | 18 | 31.8 | 56.5 | - | - | - | - | - |
| Ternifin I | | 22 | 35 | 62 | - | - | - | - | - |
| Ternifin II | | 21.5 | 31.5 | 68.2 | 13.2 | 12.5 | 165 | 94.6 | - |
| Sanqiran 1b | | 18 | 30 | 60 | 14.4 | 12.5 | 180 | 86.8 | |
| Sanqiran C | | 22.8 | 32.5 | 70.1 | - | - | - | - | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Çjoukoudyan 678 | 15.4 | 25 | 61.6 | - | - | - | - | - |
| Çjoukoudyan 682 | 19.6 | 32.8 | 59.7 | - | - | - | - | - |
| Homo erectus erevtus B1 | 17.8 (26,3 c) | 31.0 | 57 .4 | - | 12.5 | 181.2 | - | 40.0 |
| Homo erectus pekinensis G I | 19.6 | 32.8 | 53.8 | 12.9 | 12.4 | 160.0 | 96,1 | 38.6 |
| Homo erectus pekinensis H I | 15.4 | 25.0 | 61.8 | 11.7 | 11.2 | 131.0 | 95,7 | 36.9 |
| Atlantrop I | 22.0 | 34.5 | 63.8 | 11.8 | 11.6 | 136.9 | 98,3 | 36.4 |
| Atlantrop II | 23,5 | _ | _ | 12.6 | 11.3 | 142.4 | 89,6 | 42.0 |
| Atlantrop III | 25,5 | _ | _ | _ | _ | _ | - | _ |
| Mauer adamı | 21.4 | 31.0 | 65.8 | 12.0 | 10.9 | 130.8 | 90,8 | 36.1 |
| Sidi – Əbdürəhman adamı | _ | _ | _ | 11.8 | 12.0 | 141.6 | 101,7 | 39.3 |
| Erinqsdorf | 15 | 26 | 57.2 | 11.0 | 9.0 | 81.8 | 81,8 | 36.0 |
| Monte – Çirçeo | 16 | 30 | 53.3 | 11.0 | 11.0 | 100.0 | 100 | 32.0 |
| Araqo II | 18 | 29 | 61.7 | 10.8 | 9.6 | 88.8 | 88,9 | 34.0 |
| Araqo XIII | 24 | 28 | 85.7 | 13.0 | 12.5 | 96.2 | 96,1 | 42.0 |
| Le – Mustye | 19 | 28 | 67.9 | 11.0 | 11.0 | 100.0 | 100 | 36.0 |
| Spi I | 17 | 29 | 58.6 | 12.0 | 11.0 | 91.7 | 91,6 | 33.0 |
| Sxul IV | 20 | 35 | 57.1 | 11.0 | 9.0 | 81.8 | 81,8 | |
| Sxul V (147 $^{2}\backslash_{2}$) | 17 | 33 | 51.5 | 11.0 | 11.0 | 100.0 | 100.0 | 34.0 |
| Sxul V (146 $^{2}\backslash_{2}$) | 18 | 35 | 51.4 | 12.0 | 11.0 | 91.7 | 91,6 | 35.0 |

# MÜNDƏRİCAT

Maisə Rəhimova
MÜSTƏQİLLİK İLLƏRİNDƏ QARABAĞDA ARXEOLOJİ TƏDQİQATLAR....................................3

Maisa Ragimova
ARCHAEOLOGICAL INVESTIGATIONS IN KARABAKH DURING THE INDEPENDENCE YEARS .....6

Рауф Мунчаев
ВКЛАД И.Г.НАРИМАНОВА В ИЗУЧЕНИИ АРХЕОЛОГИЧЕСКОГО НАСЛЕДИЯ КАРАБАХА.......9

Асадулла Джафаров
МНОГОСЛОЙНЫЕ ПЕЩЕРНЫЕ СТОЯНКИ АЗЫХ И ТАГЛАР..............................................14

Azad Zeynalov, Pərivaz Babai
STAGES OF SETTLEMENT OF CAVE AZYKH ........................................................................17

Yaqub Məmmədov
AZIX ADAMININ HOMİNİD SİSTEMİNDƏ YERİ ......................................................................19

Сергей Кулаков
К ВОПРОСУ О ВЫДЕЛЕНИИ ВОЗМОЖНОСТИ АДАПТАЦИИ ЧЕЛОВЕКА В
РАННЕМ ПАЛЕОЛИТЕ..................................................................................................................23

Лариса Кулаковская
О НЕКОТОРЫХ СПЕЦИФИЧЕСКИХ ЧЕРТАХ СТОЯНКИ КОРОЛЕВО В ЗАКАРПАТЬЕ .......26

Barbara Helwing, Tevekkül Aliyev
LOWER QARABAGH: A MELTING POT OF NEOLITHIC CULTURES .......................................29

Nasir Quluzadə, Xəqani Alməmmədov
"QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSYASI"NIN 2010-2016-CI İLLƏRDƏ APARDIĞI
ARXEOLOJİ TƏDQİQATLARIN SON ELMİ NƏTİCƏLƏRİ .........................................................32

Səbuhi Hüseynov, Fuad Hüseynov
VİRTUAL QARABAĞ TARİXİ MUZEYİ ..........................................................................................34

Qüdrət İsmayılzadə
QARABAĞIN ARXEOLOJİ İRSİ BƏŞƏR TARİXİ ASPEKTİNDƏ .................................................36

Гидаят Джафаров
КУРГАНЫ КАРАБАХА ЭПОХИ БРОНЗЫ И РАННЕГО ЖЕЛЕЗА:
КУЛЬТУРНОЕ НАСЛЕДИЕ ДРЕВНИХ АЗЕРБАЙДЖАНЦЕВ .................................................38

Abbas Seyidov
XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNİN İZLƏRİ NAXÇIVAN ƏRAZİSİNDƏ .............................40

Alireza Hejebri Nobari
LARICAN KURGANLARI VE KUZEY-BATI IRAN'IN GEÇ TUNÇ ÇAGINDA
GÜNEY KAFKAZ'LA KÜLTÜREL ILISKILERI..............................................................................43

Bəhlul İbrahimli
SUMBATAN-DİZƏ ŞƏHƏR YERİNDƏ XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNƏ AİD QƏBİR .....44

Nəsibə Mustafayeva, Bəxtiyar Cəlilov, Leyla Rüstəmova, Samidə Fərzəliyeva
QARABAĞ ARXEOLOJİ ABİDƏLƏRİNDƏN AŞKAR OLUNMUŞ QƏDİM METALİŞLƏMƏ SƏNƏTKARLIĞINA AID METAL ƏŞYALARIN ANALİTİK TƏDQİQİ ........................................46

Bahram Ajorloo
THE IRON AGE II KHODJALI- GEDABEK CULTURE OF AZERBAIJANI QARABAGH RECORDED FROM AZERBAIJANI NORTHERN QARADAGH OF NORTHWEST IRAN.............48

Диана Джафарова
ХОДЖАЛИНСКИЙ ЛАБИРИНТ: ФОРТИФИКАЦИЯ, ВРЕМЕННАЯ УБЕЖИЩА ИЛИ КУЛЬТОВОЕ СООРУЖЕНИЯ? ..........................................................................................49

Tevekkül Aliyev
THE RESULTS OF PRELIMINARY ARCHAEOLOGICAL INVESTIGATIONS IN NARGIZTEPE ...........51

İradə Avşarova
XOCALI KƏMƏRLƏRİ ........................................................................................................53

Bəxtiyar Cəlilov, Nərgiz Axundova, Təranə Mirzoyeva
GORANBOYUN İLK TUNC DÖVRÜ KURQANLARI VƏ ONUN QARABAĞ PARALELLƏRİ ..........................................................................................55

Арзу Абдуллаева
ГРУНТОВЫЕ ПОГРЕБЕНИЯ КАРАБАХА ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ И РАННЕГО ЖЕЛЕЗА ....................................................................................................56

Cəmilə Həsənova
ÇARDAXLI TƏPƏLƏRİ YAŞAYIŞ YERİ KOMPLEKSİ ................................................................58

Дёюш Мусаев
КУРА АРАКССКАЯ КУЛЬТУРА ЕЕ ОБЩНОСТЬ И РАЗНООБРАЗИЕ. ..................................59

Aidə Məmmədova
QARABAĞDA ÜZƏRLİKTƏPƏ ŞƏHƏR YERİNİN DULUSÇULUQ MƏMULATLARI....................60

Aslan Gasimov
ZOOMORPHIC ORNAMENTS OF KHOJALY-GEDABEY CULTURE CERAMICS .........................62

Arif Mammadov, Taleh Aliyev
SHORTEPE ARCHAEOLOGICAL SITE AND BARDA IN ANTIQUE – EARLY MEDIEVAL PERIOD ....64

Arif Məmmədov, Taleh Əliyev
ŞORTƏPƏDƏ APARILMIŞ SON ARXEOLOJİ TƏDQİQATLAR...................................................68

Гюлана Алиева
ОБ АЛБАНСКОМ ГОРОДИЩЕ ГЯВУРГАЛА В ГАРАБАГЕ ......................................................70

Мубариз Халилов
ЦЕРКВИ УРЕКВАНКА (НАГОРНЫЙ КАРАБАХ) И ВЕРХНЕГО ЧИРЮРТА (ДАГЕСТАН) ............72

Nuridə Qədirova
QARABAĞ VƏ ƏTRAF BÖLGƏLƏRİN ARXEOLOJİ MATERİALLARI
BERLİN VƏ VYANA MUZEYLƏRİNDƏ ........................................................................74

Safar Ashurov, Mohammad Mirzaei, Reza Ataei, Ali Karimi Kiya, Najmeh Nouri
COLLAPSE ARCHAEOLOGY IN IRON AGE IN AZERBAIJAN ......................................................76

Zümrüd Qəhrəmanova
BƏRDƏ - ERKƏN ORTA ƏSRLƏRDƏ QARABAĞ BÖLGƏSİNİN
İNKİŞAF ETMİŞ MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ ........................................................77

Fuad Hüseynov, Səbuhi Hüseynov, Alik Xankişiyev
QARABAĞIN DÖVLƏT ƏHƏMİYYƏTLİ TARİXİ ABİDƏLƏRİNİN
ELEKTRON XƏRİTƏSİ ..........................................................................................80

Rahilə Şükürova
MİRASIMIZ QARABAĞ ..........................................................................................82

Afaq Quluzadə
QARABAĞ VƏ NAXÇIVANIN PLASTİK SƏNƏTKARLIQ NÜMUNƏLƏRİ ..................................86

Саадат Асадова
О ВРЕМЕНИ ВОЗНИКНОВЕНИЯ ГОРОДА БАРДЫ ........................................................88

Natiq Alışov
ƏRƏB IŞĞALINDAN SONRA QAFQAZ ALBANIYASI VƏ ARSAX –
XAÇIN KNYAZLIĞINDA XRISTIANLIQ .........................................................................91

Bahram Ajorloo
THE QARABAGH OF AZERBAIJAN, IN THE CONTEXT OF ISLAMIC HISTORY,
AS RECORDED IN THE PERSIAN HISTORICAL RESOURCES, 1200-1800 AD ..........................95

Tarix Dostiyev
ARXEOLOJİ İRS VƏ ONUN BƏZİ MƏSƏLƏLƏRİ ..........................................................96

Töhfə Hüseynova
QARABAĞIN QƏDİM ABİDƏLƏRİ HAQQINDA ...............................................................99

Tükəzban Göyüşova
QARABAĞIN ARXEOLOJİ ABİDƏLƏRİ RƏŞİD GÖYÜŞOVUN TƏDQİQATLARINDA ...............100

Ульвия Гаджиева
ПЕЩЕРНЫЕ ХРАМЫ ГАРАБАХА ...........................................................................102

Эльмира Джафарова
СРЕДНЕВЕКОВЫЕ ПАРАЛЛЕЛИ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЫ
ШИРВАНА И КАРАБАХА (X-XIII вв.) ...................................................................104

Vusal Aliyev
RESEARCHES IN MEDIEVAL LAYER OF GALATEPE TOWN DWELLING..............................105

Sevinj Guliyeva
LATE MEDIEVAL FORTIFICATIONS OF GARABAGH.............................................................107

Şəhriyar Quliyev
AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN DAŞ VƏ TUNC DÖVRÜ ABİDƏLƏRİNİN ............109
TƏDQİQİ HAQQINDA

Həsrət Şıxəliyev
KÜR-ARAZ QOVŞAĞI ƏRAZİSİNDƏ METALİŞLƏMƏ SƏNƏTİ ................................................112

Mikayıl Mustafayev
ÇARDAQLI ABİDƏSİNİN SAXSI MƏMULATLARI ....................................................................114

Акиф Гулиев, Гюнай Гулиева, Фидан Гулиева
МОНЕТНОЕ ДЕЛО И ДЕНЕЖНОЕ ОБРАЩЕНИЕ КАРАБАХСКОГО ХАНСТВА..................115

Məhəbbət Paşayeva
QARABAĞ ƏRAZİSİNDƏ XRİSTİANLIĞAQƏDƏRKİ İNANCLARIN İZLƏRİ ............................118

# QARABAĞIN ARXEOLOJİ İRSİ

*Beynəlxalq Elmi Konfransın*

## MATERİALLARI

BAKI

*28-30 Noyabr 2016-cı il*

*"Xəzər Universiteti"* nəşriyyatı

9 789952 830453

*AFpoliQRAF mətbəəsində çap olunmuşdur*
Bakı, 2016

Mətbəənin direktoru: F.Hüseynov
Texniki redaktor: A.Rəsulov
Dizayn: V.Nağıyev

Formatı 64x90 $^{1}/_{8}$.
Həcmi 8 ç.v.
Tirajı 200.